BAKI AVRASİYA UNİVERSİTETİ

# SİVİLİZASİYA



10/2015

BAKI AVRASİYA UNİVERSİTETİ

Elmi-nəzəri
jurnal

# SİVİLİZASİYA

# ЦИВИЛИЗАЦИЯ
# CIVILIZATION

"Sivilizasiya" jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin 06 iyul 2012-ci il (Protokol № 10-R) tarixli qərarı ilə aşağıda göstərilən elm sahələri üzrə dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısına daxil edilmişdir: Tarix, Antropologiya və Siyasi elmlər; Fəlsəfə və Sosiologiya elmləri; Filologiya elmləri; Sənətşünaslıq Sahəsi.

10.2015

BAKI AVRASİYA UNİVERSİTETİ
"Sivilizasiya" jurnalı 2015.№10

---

**İsaxan İSAXANLI**
AMEA Nizami adına Ədəbiyyat
İnstitunun doktorantı, Xəzər Universiteti
iisaxanli@khazar.org; isaxanisaxanli@mail.ru

# POETİK TƏRCÜMƏNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Açar sözlər:** *Azərbaycan dilinə tərcümələr, bədii tərcümə, poetik tərcümə, tərcümə nəzəriyyəsi, tərcümə prinsipləri*
**Ключевые слова:** *Перевод на азербайджанский язык, художественный перевод, поэтические переводы, теория перевода, принципы перевода*
**Keywords:** *Translation into Azerbaijani, literary translation, poetic translation, translation theory, principles of translation*

Başqa ədəbiyyatın poeziya nümunələrini dilimizə çevirən hər bir mütərcimin başlıca məqsədi onu dilimizdə adekvat şəkildə poetik səsləndirməklə, həm konkret əsəri, həm də onun müəllifini Azərbaycan poeziyasevərlərinə sevdirməkdir. Hansı tərcüməçinin bu məqsədə nə dərəcədə nail olması isə artıq onun bu sahədəki səriştəsindən, təcrübəsindən, tərcümə nəzəriyyəsinə hansı səviyyədə bələd olmasından, yeri gəldikcə tərcümə prosesində meydana çıxan konkret çətinliklərin həllində müxtəlif tərcümə priyomlarından istifadə etmək bacarığından, şairlik ilhamından, poeziya duyumundan, geniş mənada tərcümə edənin tərcüməçilik ustalığından asılıdır. Nəsr tərcüməsindən fərqli olaraq poetik tərcümənin xeyli çətinlikləri vardır ki, bu məqamları mütərcim öz dilində orijinala uyğun yaratmağa borcludur. Poetik tərcümədə, hər şeydən öncə, «... mütərcimin ən böyük missiyası ondan ibarətdir ki, o, şairin döyünən qəlbinin çırpıntılarını onun şeirlərindən eşitməli və şairin qəlbinin bu döyüntüsünü öz xalqının dilində (ifadə etməyi bacarmalı), mümkün olmayanı mümkün etməlidir... poeziyanın tərcüməsi zamanı ritm, ölçü, qafiyə və s. ifadə formaları auditoriyaya məlumatın ruhunu çatdırmaqda mühüm amillərdən biridir» (5, s.75).

Biz də bu yazıda, «kainatı birləşdirən, bütövləşdirən işlərin ən vaciblərindən və ən layiqlilərindən» (12, s.412) hesab olunan tərcümə işində, xüsusilə də poetik tərcümədə meydana çıxan çətinliklərdən, mütərcimlərimizin daimi diqqət mərkəzində saxlamalı olduğu ən vacib məqamlardan-orijinala sədaqət, dəqiqlik, adekvatlıq, forma, məzmun, mətnin ruh və poeziyasının oxucuya çatdırılması, orijinal müəllifinin fərdi-poetik üslubunun saxlanılması, mütərcim məsuliyyəti kimi prinsiplərlə yanaşı, tərcümədə sərbəstlik, yaradıcılıq kimi məsələlərdən söhbət açmağa çalışacağıq.

Şekspir (1564-1616), Bayron (1788-1824), Höte (1749-1832) və digər poeziya nəhənglərindən nümunələri ruscaya çevirmiş, tanınmış rus şair-tərcüməçi V.Levikin (1906-1982) fikrincə, tərcümə zamanı mütərcim üçün ən başlıca xüsusiyyətlərdən biri

və hətta birincisi, onun orijinala sadiqliyi ilə, poetik ilhamının sintezidir (14, s.55-63). Bununla yanaşı, tərcüməşünaslıqda tərcümənin dəqiqliyindən çox danışılır, bu məsələ ətrafında çox diskussiyalar aparılır. Adını çəkdiyimiz mütəxəssisin fikrincə, məhz bu prinsip tərcümə praktikasında zaman-zaman müəyyən uyğunsuzluqlara və hətta yanlışlıqlara gətirib çıxarır və tərcümənin dəqiqliyi, ümumiyyətlə, onun bədiilik ölçüsü ola bilməz (15, s.358-359).

Ümumiyyətlə, orijinala sədaqət, dəqiqlik, adekvatlıq kimi məfhumlar bir-birinə çox yaxın səsləndiyi qədər də fərqli anlayışlardır. Digər tərəfdən də, bu məsələlər fərqli olduqları qədər də bir-biri ilə vəhdətdədir. Ona görə də, nəzəriyyədən fərqli olaraq, praktik tərcümədə qarşıya bu prinsiplərin hər birinə ayrı-ayrılıqda əməl etmək kimi məqsəd qoyularsa, alınan mətn orijinal mətnin quru, rəngsiz surətinin çıxarılmasından başqa bir şey olmayacaq və burada poeziyadan, ürəyəyatımlıqdan, oxucu ilə şirin ünsiyyətdən danışmaq mümkün olmaz. Tərcümədə nəzəriyyədən, qaydalardan, prinsiplərdən nə qədər söhbət açsaq da, tərcümə praktik iş olduğundan, hansı prinsiplərin önə çıxdığı, hansının isə kölgədə qaldığı məhz işin gedişatında, prosesin özündə, nəhayət nəticədə aydın olur.

Şeirin ayrı-ayrı elementlərinə, həm orijinal, həm də ikinci dilin xüsusiyyətlərinə, müəllifin üslubuna, şeirdə istifadə olunan bədii gücləndirmə vasitələrinə və bir sıra digər məqamlara əməl edilməsi, «öz doğma dilində orijinalın ruhuna, ahənginə uyğun gələn poetik ifadə tərzini tapmaq» (4, s.337), başqa sözlə, orijinala mümkün qədər yaxın olmaqla, şeiriyyəti saxlamaq bacarığı tərcümədə ən mühüm faktorlardandır. Mütərcim şeiri tərcümə etdiyi anda orijinal müəllifinin həmin şeiri yazdığı andakı ruhunda olmalıdır, onun həmin anda keçirdiyi hissləri bütün varlığı ilə yaşamalıdır. Məsələn, Serqey Yeseninin «Anama məktub» şeirini tərcümə edərkən gözlərin yaşarmazsa, uğursuzluğa məhkumsan.

Tərcümədə orijinala sadiqlik çox vacib olsa da, şeirin çevrildiyi dildə-azərbaycan dilində nə qədər təbii alınması (bu, müəyyən mənada, tərcümə mətninin tərcümə edildiyi dildə ömrünün üzünluğu deməkdir) ondan az vacib deyil və hətta, daha çox vacibdir və son məqamda məhz axıcılıq, şeiriyyət, poeziya, alınan şeirin öz ritmi, ahəngi, musiqisi ilə oxucunun qəlbinə girə bilməsi, onun zövqünə sığal çəkməsi keyfiyyəti hər şeydən önə çəkilməlidir. Burada da, heç şübhəsiz, şeirin çevrildiyi dilin xüsusiyyətləri, imkanları və əlbəttə ki, mütərcimin bu imkanlardan yararlanma ustalığı böyük rol oynayır. Fililogiya elmləri doktoru, professor, tənqidçi, tanınmış rus şairi Y.Mineralov (1948-2012) mütərcim qarşısında duran vəzifələrdən danışarkən yazır: «... mətni öz milli ədəbiyyatının canlı obrazları və bədii assosiasiyalarının köməyi ilə danışmağa məcbur etmək. Əks təqdirdə oxucu ilə estetik «ünsiyyət» baş tutmayacaqdır» (16, s.253). Poetik tərcümədə bu «estetik ünsiyyət» «olum, ya ölüm» məsələsinə çevrilir.

Orijinal şair, istedadlı tərcüməçi Ramiz Rövşən də, «şeiri tərcümə eləmək hansısa bir bədən üzvünü bir canlı orqanizmdən başqasına köçürmək kimidir. Əgər sənin köçürdüyün bədən üzvü başqa orqanizmdə-dildə yaşamayacaqsa, istəyirsən onu qızıl sapla tik, xeyri yoxdur» (6, s.8) deyərkən, yəqin ki, tərcümənin elə bu xüsusiyyətini nəzərdə tutmuşdur.

Tərcümə sənəti, digər dildən tərcümələr milli ədəbiyyata yeni mövzu, forma, məzmun və digər elementlərlə müdaxilə etdiyindən onun inkişafında olduqca mühüm rol oynayır. Amma bir sıra hallarda tərcümə yenidən düzəldilən əsər, düzəltmə əsər (sözün əsl mənasında tərcümə yox) təsiri bağışlayır, bu ondan irəli gəlir ki, özgə dildə olan əsərin məzmununu və formasını mütərcim öz duyumuna görə dəyişir və bunun əvəzində, uğur qazanacağına ümid edərək, oxucuya orijinaldakı deyil, sanki özünün yeniləşmiş forma və məzmununu diqtə edir. Belə tərcümələri oxuduqca zahiri şirinlik hiss edilsə də, məna və məzmun baxımından çatışmazlıq, natamamlıq, qarışıqlıq ön plana çıxır, ümumi tərcümədən, müəyyən mənada, qulaq razı qalsa da, könül narazı qalır. Bu isə, heç şübhəsiz, tərcümənin uğurlu alınmadığının bariz göstəricisidir.

Belə tərcümələrdə elə təsəvvür yaranır ki, tərcümə mətni bütövlükdə bir şeirin tərcüməsi deyil, ayrı-ayrı bəndlər, hətta misraların tərcüməsindən ibarətdir. Odur ki, tərcümədə, tərcümə edilən mətnin bütövlüyünün saxlanması, misraların, bəndlərin bir-birinə bağlanması, daha geniş mənada məzmun-forma bütövlüyünün qorunması, orijinala sadiqlik baxımından vacibdir. Gürcü tərcüməşünaslığının, bütövlükdə Sovet tərcümə məktəbinin ən nəhəng nəzəriyyəçilərindən biri Qivi Qaçeçiladze yazır: «Bədii reallıq orijinalın forma və məzmununun vəhdətindədir və mütərcim müəllifin yalnız nə dediyini deyil, həm də onun necə dediyini görməlidir. O, ona təqdim olunmuş bədii reallığı bir rəssam kimi əks etdirməlidir, yoxsa, sözlərin uyğunluğunun arxasınca qaçmamalıdır, əks halda sözlər-ağaclar arxasında o, heç vaxt meşəni, başqa sözlə, tam əsəri görməyəcək. O, öz dilində bütöv meşənin tam mənzərəsini yaratmalıdır, ayrıca sözlərin-ağacların şəklini çəkməli deyil» (11, s.158).

Tərcümədə digər faktorlar da unudulmamalıdır. Tərcüməçənin şeirin orijinal dilini yaxşı bilib-bilməməsi və ya tərcümə vaxtı orijinala səthi münasibət. Bunlar birbaşa mütərcim məsuliyyətilə bağlı məsələlərdir. Əlbəttə, dil bilməyən birinin həmin dildən tərcümə etməyə girişməsi real görünməsə də, tərcümələrdə orijinala səthi münasibət faktlarına çox rast gəlirik. Orijinaldakı fikirlərin tərcümədə yanlış ifadə edilməsi də, fikrimizcə, mütərcimin orijinal dili bilməməsindən deyil, əsasən, orijinala və ümumilikdə, bir qədər kəskin desək, məşğul olduğu sənətə səthi münasibətdən qaynaqlanır. Bəzən müəlliflər bir sözü əsas götürərək onun «başına fırlanır», hər hansı bir mənanı ifadə edir, lakin həmin məna orijinaldakından tamamilə fərqli olur, onun ümumi məzmununa və ruhuna qətiyyən uyğun gəlmir. Bunları aradan qaldırmaq üçün tərcümə zamanı orijinalın ruhuna sadiqlik və orijinaldakı məzmuna, mənaya həssaslıq göstərilməsi vacibdir.

Burada, heç şübhəsiz, mütərcimin orijinal dilin daşıyıcısı olan xalqın milli xarakteri və mədəniyyəti ilə nə dərəcədə yaxından tanış olması, onu nə dərəcədə başa düşməsi də az rol oynamır: «Başqa xalqın poeziyasını başa düşmək-başqa milli xarakteri, başqa mədəniyyətin emosianal dünyasını başa düşmək deməkdir». (21, s.3).

Mütərcim bütün şeir boyu misraların ayrı-ayrılıqda yaxşı səslənməsinin qayğısına qalmaqla, ümumilikdə, bütün əsərin dolğun alınmasında maraqlı olduğunu nümayiş etdirməlidir. Çünki, onunçün orijinaldakı dərin hiss-həyəcanı, şeirin ritmik-melodik ifadə tərzini, şeirdəki ahəngi tərcümə dilində yaratmaq daha önəmlidir. «Məhdud çərçivələr içində də xoş ahəng yaratmaq və gözəllik axtarışına çıxmaq mümkündür. Söz çox, ifadə çox, qafiyə çox, üstəlik də şeir müəllifinin hiss-həyəcanla dediyi hazır fi-

kirlər... Bu xammal və vəsaitlərin əsasında tərcüməçi yeni dildə, başqa sözlə desək, yeni yerdə şairin qurduğu binaya bənzər yeni bina inşa etməlidir. Əlbəttə, bu inşaatçı müəyyən dərəcədə memar da olmalıdır, işini də həvəslə, ehtirasla, tələm-tələsikliyə yol vermədən görməlidir» (4, s.363).

Tərcümədə mütərcim məsuliyyəti məsələsinə xüsusi önəm verən Abdulla Şərif bir məqaləsində yazırdı: «Bir ədəbi əsərin başqa bir dilə tərcüməsi elə böyük bir operasiyadır ki, ondan sonra əsər ya ölür, ya şikəst olur, çox az ehtimal da sağ qalır» (1). Bu fikir, 80 il bundan qabaq deyilsə də, tərcümə işinin nə qədər çətin və məsuliyyətli bir iş olduğununu vurğulamaqla, bu gün də öz təravətini saxlamaqdadır.

Tərcümədə ən çox mübahisə doğuran məsələlərdən biri tərcümə prosesində mütərcimin sərbəstlik çərçivəsinin «müəyyənləşdirilməsi», mütərcim yaradıcılığı problemidir. Bu problem ətrafında daimi mübahisə gedir, müxtəlif fikirlər irəli sürülür. «Tərcümə yaradıcı işdir» deyənlər mütərcimlərin kifayət qədər sərbəst olmalarını, yeri gəldikcə orijinal mətnə müəyyən əlavələr etmə haqlarını müdafiə edir və bunu, müəyyən mənada, əsaslandırırlar. Bu məqamda İ.Semenkonun (1921-1987) böyük tərcümə ustası V.A.Jukovski (1783-1852) haqqında dediyi bir fikir diqqəti cəlb edir: «Jukovskinin əlavələri çox vaxt o qədər gözəl olur ki, təəssüf edirsən ki, nə üçün bu, orijinalda yoxdur» (19 s.15). Əks mövqenin tərəfdarları mütərcimin, yalnız müəllifin dediklərini, özü də məhz onun dediyi kimi, maksimim dəqiqliklə oxucuya çatdırmağa borcu olduğunu qeyd edirlər.

Amerikalı şair-tərcüməçi Henry Longfellow (1807-1882) tərəfindən, ilk baxışdan sadə həqiqət kimi görünən, həm maraqlı, həm də xeyli ziddiyyətli, belə bir fikir irəli sürülmüşdür: «Tərcüməçinin işi müəllifin nə dediyini (oxucuya) çatdırmaqdır, onun nə demək istədiyini izah etmək deyil» (4, s.326). Bunun tam əksini də söyləyənlər var: Tanınmış argentinalı publisist, şair, tərcüməçi Luis Borxes Asevedo (1899-1986) öz tərcüməçilərinə deyirdi: «Dediyimi yox, demək istədiyimi tərcümə edin» (8, s.19). Baxın, nə qədər bir-birinə əks mövqelər. Amma, istənilən halda, belə məqamların, yəni tərcüməçinin demək istədiyi müəyyən bir fikri kəşf etmək, onun mətnə əlavə edərək oxucuya çatdırmaq, fikrimizcə, məzmuna lazımsız müdaxilə kimi deyil, əksinə mütərcimin orijinalın məzmununa daha dərindən nüfuz etməsi kimi qəbul edilməli, müsbət hal kimi qarşılanmalıdır.

Poetik mətnin mütərcimi iki dil arasında, daha doğrusu, iki dilin nümayəndələri-orijinal müəllifi ilə tərcümənin oxucuları arasında bir vasitəçidir, orijinal müəllifinin şeir formasında yazılmış məktubunu başqa bir dilin daşıyıcılarına, oxucularına çatdıran bir poçtalyondur. Əslində, poçtalyon məktubu yalnız ünvana çatdırmalıdır, onun məktuba əlavələr etməyə heç bir haqqı yoxdur. Amma, «bu poçtalyon»la «o poçtalyon» arasında fərq var. Burada hər şey planlaşdırılmış şəkildə olmur, bəzən mütərcim istədiyindən yox, istəmədiyindən-müəllifin fikrini eyni dəqiqliklə, eyni gözəlliklə çevirə bilmədiyindən mətnə özü bildiyi kimi müdaxilə edir, «məcburi saxtakarlığa» getməli olur və bu hal konkret mütərcimin tərcüməçilik ustalığının zəifliyindən baş verdiyindən, orijinalın əleyhinə işləyir. Yaxşı, istedadlı mütərcim isə, üstəlik o, yaxşı şairdisə, ilhamı aşıb-daşdıqca orijinal mətnə «sığışmır» və mətnə öz ilhamı çərçivəsində əlavələr edir, mətni zənginləşdirir və bu, əsasən, orijinalın xeyrinə işləyir. Amma, orijinalın xeyrinə, yoxsa ziyanına işləməsindən asılı olmayaraq, bir şeyi əminliklə

söyləmək olar ki, heç bir şair, tərcümə zamanı onun mətninə əlavələr edilməsinə isti baxmaz. Mütərcim isə, tərcümə mətnini müəyyən mənada «özününkü» hesab etdiyi üçün belə sərbəstliyə yol verə bilir. Əslində, bir qayda olaraq, mütərcim tərcümə üçün zəif şair və şeir deyil, yaxşı hesab elədiyi şairin yaxşı hesab elədiyi şeirini seçir (söz-süz ki, istisnalar da var). Yaxşı şeirin, şairin isə tərcümə zamanı mütərcim «canfəşanlığına», böyük şairimiz, tərcümə ustası Səməd Vurğunun (1906-1956) dediyi kimi «güzəştlərə, yaxud bəzək-düzəyə, zənginləşdirməyə ehtiyacı yoxdur» (7, s.272).

Əlbəttə, tərcüməçi tərcümə etdiyi şeiri, müəyyən mənada, mütləq «özününküləşdirməlidir». Burada «özününküləşdirmək» dedikdə mütərcimin sərbəstlik miqyasını, onun mətnə istədiyi kimi əlavələr və ya ixtisarlar etmək haqqı nəzərdə tutulmur, burada söhbət tərcümə etməyə hazırlaşdığı mətnin, şeirin mütərcim tərəfindən hərtərəfli qavranılması, onun məzmununa, mənasına, ruhuna dərindən nüfuz edilməsi, «tərcüməçilərin dilimizə çevirmək istədikləri poetik mətni qıraqdan, misra-misra baxıb tərcümə etmək yox, içdən yaşaması» (2, s.18) və s. kimi məsələlər başa düşülür. Orijinal mətnə məhz belə nüfuzetmənin nəticəsində tərcümə mətninin tərcümə olduğu sezilməyəcək, o, çevrildiyi dildə sanki orijinal mətn kimi oxunacaq. F.Şillerin (1759-1805) «Kubok» balladasının Jukovski tərcüməsindən danışarkən İ. Semenko yazır: «Bu tərcümə o qədər dəqiq və canlı edilmişdir ki, doğrudan da adama elə gəlir ki, sanki Şillerin özü onu rus dilində yazmışdır» (19, s.15). S.Vurğun da «Yevgeni Onegin»in tərcüməsindən danışarkən deyir: «Mən belə hesab edirəm ki, «Yevgeni Onegin» Azərbaycan dilində mənim orijinal əsərim olmalıdır, yəni Azərbaycan dilində onun tam hüquqlu müəllifi mən olmalıyam-bəli, məhz müəllifi» (7, s.278).

Bununla yanaşı, heç vaxt unutmaq lazım deyil ki, mütərcimin tərcümə üçün götürdüyü mətn orijinal müəllifinə məxsusdur, mütərcim mətni, yuxarıda dediyimiz kimi, «özününküləşdirə» bilər, lakin həddindən artıq sərbəstliyə yol verməklə, onu tərcümə etdiyi şairin əlindən ala bilməz. Müəyyən bir çərçivə içində əlavələr, sərbəstlik, yaradıcılıq isə ola bilər və hətta, mütləq olmalıdır. Bütün bunlar, orijinalın bəzi özəlliklərini, xüsusiyyətlərini tərcümədə göstərə bilmək üçün atılan addımlardır. «Mən öz tərcümələrimdə yaradıcılıq prinsiplərinə əsaslanıram. Hətta poeziyamızın günəşi olan Puşkinin əsərlərini tərcümə edəndə də mən bəzi yaradıcılıq sərbəstliyinə yol vermişəm» (7, s.272) deyən Səməd Vurğun sonra yazır: «Mənə elə gəlir ki, ... Puşkin onun müdrik poeziyasını, fikirlərini, zəngin hislərini qorumaq xatirinə hətta ixtisarlara və ya əlavələrə də razı olardı» (7, s.278). Əlbəttə, bütün bunlar, müəllif üslubu çərçivəsində, məhz Səməd Vurğunun dediyi kimi, «orijinal müəllifinin poeziyasını, fikirlərini, zəngin hislərini qorumaq xatirinə», özü də «onun materialından, onun ilhamından doğan» əlavələr olursa, qəbulediləndir. Hətta bu halda da yaradıcılığın, sərbəstliyin bir miqyası olmalıdır. Sərbəstlik ölçüdən çıxanda, özbaşınalığa keçəndə, hətta orijinalı həddindən artıq gözəlləşdirsə, zənginləşdirsə belə, tərcüməşünaslıq sahəsində tanınmış gürcü mütəxəssis A.Abuaşvilinin dediyi kimi, «üsyan qaldırmaq» lazımdır (9, s.75).

Başqa sözlə, tərcümədə müəllifin dilinin koloritini itirməyə, onun fərdi-poetik üslubundan, bədii ifadə vasitələrindən və şeirin məzmunundan ciddi uzaqlaşmağa tərcüməçinin haqqı yoxdur. Tərcümədə məhz orijinal müəllifinin fərdi-poetik üslubunun, müəllif möhürünün, orijinalın «sifəti»nin saxlanılması vacibliyi, Belinskinin (1811-

1848) aşağıdakı fikrində bir daha aydın şəkildə təzahür edir: «Hötedən tərcümələrdə biz Höteni görmək istəyirik, onun tərcüməçisini yox. Əgər Puşkinin özü də Hötedən tərcümə etməyə girişsəydi, biz ondan da tələb edərdik ki, bizə Höteni göstərsin, özünü yox» (10, s.277).

Tanınmış rus tənqidçi, şair-tərcüməçi L.Ozerovun (1914-1996) fikrincə, yaxşı sənətkarın şəxsi möhürü yalnız şairin orijinal şeirində deyil, tərcümədə də hiss olunmalıdr. Mütərcim şeiri tərcümədə elə çevirə bilməlidir ki, çətinlik çəkmədən, şeirin, konkret olaraq bir şairə, məsələn, Pasternaka, Svetayevaya... məxsus olduğunu duya biləsən (18, s.103).

Lakin bu məsələ birtərəfli də qəbul edilə bilməz. Orijinal şeir, əsasən, onun yazıldığı dilin daşıyıcıları üçün yazılmışdır. Əlbəttə, gözəl əsər sonradan beynəlimləşir, bütün dillərin və xalqların xəzinəsinə çevrilir, amma istənilən halda o, yazılanda ilk ünvan məhz həmin dilin daşıyıcıları olmuşdur. Tərcümə mətni isə tamamilə başqa bir dilin daşıyıcıları üçün nəzərdə tutulur. Birinci haldan fərqli olaraq burada beynəlimləşmə prosesi getmir (Bu məsələdə imperiya dilləri istisnadır. Məsələn, Sovet dövründə, Azərbaycan da daxil olmaqla, əksər respublikaların ədəbiyyat adamları orijinaldan deyil, ikinci dildən-rus dilindən tərcümə edirdilər). Amma bizim dilimizlə bağlı mənzərə fərqlidir; Azərbaycan dilinə tərcümə edilmiş şeir məhz və yalnız azərbaycanlı oxucular üçündür. Ona görə də mütərcim, müəllif dilinin koloritindən, onun fərdi-poetik üslubundan, şeirin forma və məzmunundan ciddi uzaqlaşmamaqla yanaşı, həm də bu dilin kaloritini unutmamalı, onun imkanlarından geniş istifadə etməklə, mətnin dilimizdə axıcılığını, ürəyəyatımlılığını, onun, yuxarıda dediyimiz kimi, sanki orijinal dildə orijinal mətn kimi oxunmasını təmin etməlidir. Səməd Vurğun, Adalisin «Azərbaycan» şeirinin rus dilinə tərcüməsini yüksək qiymətləndirərkən yazırdı: «... tərcümədə elə bir xüsusiyyət vardır ki, bu, mənim şeirimi rus şeiri kimi səsləndirir» (7, s.272).

Müxtəlif dünya xalqlarının poeziyasından, xüsusən də gürcü dilindən çoxsaylı şairlər, o cümlədən, F.Çavçavadze (1837-1907), A.Tsereteli (1840-1915), V.Pşavela (1861-1915) və başqalarının əsərlərini rus dilinə tərcümə etmiş, Ş.Rustavelinin (1160-1216) «Pələng dərisi geymiş pəhləvan» əsərini böyük ustalıqla ana dilinə çevirmiş şair, tərcüməçi Nikolay Zabolotski (1903-1958) də bu məsələlərə böyük önəm verərək deyirdi: «Tərcüməçi qarşısında tərəzinin iki gözü durur: birincisi orijinalın müəllifinə aiddir, ikincisi tərcümənin oxucusuna. Tərcümə o halda yaxşı olacaq ki, gözlərin tarazılığı pozulmayacaq» (13, s.251).

Ümumiyyətlə, tərcümədə belə bir fikir formalaşmışdır ki, orijinala daha yaxın tərcümələr yaxşı səslənir və səslənmə ürəyəyatımlıdırsa, bu da orijinala yaxınlıqdan irəli gəlir. Lakin tərcümə nəzəriyyəsində bu da mövcuddur ki, orijinala həddindən artıq yaxınlaşma istəyi, müəyyən mənada, tərcüməni poeziyadan uzaqlaşdırır. Bu, sözsüz ki, arzuedilməz haldır və tərcüməçinin orijinaldakı ruhu, şeiriyyəti tuta bilməməsindən və bütün bunları quru söz oyununa qurban verməsindən irəli gəlir. Üstəlik, mütərcimin tərcümə etdiyi mədəniyyətə, həm tərcümə olunan, həm də orijinal dilin sirlərinə dərindən bələdliyi, tərcümə prosesində nəinki tərcümə edilən şeirin ruhunun tutulması, eləcə də onun müəllifinin də ruhunun, xarakterinin nəzərə alınması, orijinal müəllifilə mütərcim arasında daxili, mənəvi, ruh yaxınlığı, ruh qohumluğu kimi mə-

sələlər də tərcümənin uğurlu alınmasına təsir edə biləcək mühüm faktorlardan hesab edilməlidir.

Tanınmış rus şairi, istedadlı tərcüməçi K. Çukovski, poetik tərcümədə mütərcimdən yalnız müəllifin obraz və fikirlərinin, süjet sxeminin verilməsini deyil, eyni zamanda onun ədəbi manerasının, onun yaradıcı şəxsiyyətinin, onun üslubunun verilməsini tələb edir. «Əgər bu məsələ həllini tapmırsa, bu tərcümə heç nəyə yaramır» deyən Çukovski, bunu orijinal müəllifinə qara yaxmaq, şər atmaq kimi qiymətləndirir (20, s.255).

Bütün bunlar, tərcüməyə, xüsusən də güclü milli ruh daşıyıcısı kimi şöhrət qazanmış şairlərin poeziyasından tərcümələrə həddindən artıq həssaslıqla yanaşmaqla, tərcüməçidən böyük ustalıq və məsuliyyət tələb edir.

Tərcümənin çətinliyi, bəzi mütəxəssisləri, zaman zaman müəmmalı fikirlər söyləməyə vadar etmişdir. S.Y. Marşak (1887-1964), nəinki hər-hansı bir konkret şeirin, ümumiyyətlə, şeirin tərcüməsi ilə bağlı çox kəskin fikir söyləyir: «Şerlərin tərcüməsi mümkün deyil». Başqa bir vaxt o, fikrini bir qədər yumşaltsa da («Hər dəfə bu, istisnadır») (17, s.373) bu sözlərdə yenə də poetik tərcümənin fövqəladə çətinliyi öz əksini tapır.

Azərbaycan tərcüməşünaslığında da bu fukrin xeyli tərəfdarları var. Məsələn, tanınmış nasir və tərcüməçi Etimad Başkeçid bir müsahibəsində deyir: «Hara çəksən də, poetik tərcümədə zövqlə yazılmış şeirdən əsər-əlamət qalmır... pis şeiri yaxşı şeir kimi tərcümə eləmək olar, amma yüksək bədii meyarlara cavab verən şeiri adekvat tərcümə etmək mümkün deyil, onu yalnız korlamaq olar» (3, s.9). Sözsüz ki, elə bu qəti, kifayət qədər də ziddiyyətli fikrin nəticəsi olaraq, mütərcim, poetik mətnləri, ümumiyyətlə, tərcümə etmədiyini yazır. Əlbəttə, hər-hansı bir sənətkar-yazıçı, şair, mütərcim ortaya dəyərli bir əsər qoya bilməyəcəyini əvvəlcədən bilirsə, onun bu işlə məşğul olmamasını sənətə ən sadiq xidmət kimi qiymətləndirmək lazımdır.

Biz isə tərcüməyə daha yaxşı yatan və ya daha çətin yatan şeirlərin varlığı fikrini qəbul etsək də, «tərcüməyə yatmayan, sadəcə, çevrilməyən» şeirlərin varlığı haqqında fikirlərə qəti qatılmırıq. Şeirin tərcüməolunmazlığı ilə bağlı yuxarıda deyilən fikirlər ətrafında bir xəyalpərəst kimi fəlsəfiliyə dalsaq, burada, müəyyən mənada, həqiqətin elementləri olduğunu qəbul etmək olar. Amma göydən yerə ensək, reallığa qayıtsaq, əlbəttə, hər hansı bir şeir tərcüməyə asan yatmaya bilər, lakin onu (üstəlik, ümumiyyətlə şeiri!) «çevrilməyən şeirə» çevirmək qərarı tələsik qərardır. Əgər hər hansı bir şeiri bir dildə (şeirin orijinal dilində) gözəl səsləndirmək mümkün olmuşdursa, onu eyni gözəlliklə istənilən dilə çevirmək olar. Çünki, istənilən əsərin, ö cümlədən orijinal şeirin özü də, müəyyən mənada, bir tərcümədir-şairin düşüncəsinin, onun mövzuya baxışının, münasibətinin, dünya görüşünün, onun yalnız ona məxsus «xəyal dünyasının qələmi» vasitəsilə ağ kağıza yazılmış tərcüməsi. Əgər bu gün bir şeiri dilimizdə orijinala uyğun gözəlliklə vermək mümkün olmamışdırsa, bu, o demək deyildir ki, həmin şeir tərcüməolunmazdır, sadəcə, həmin gözəlliyi verə biləcək tərcüməçinin yoxluğudur əsas səbəb.

Öz tərcüməçisi ilə birlikdə doğulacaq o gözəl tərcümə də!

## QAYNAQLAR


**Azərbaycan dilində**

1. Abdulla Şərif. Bədii tərcümə məsələləri ətrafında. «Ədəbiyyat» qəzeti, 1935, 6 fevral.
2. Bir şeirin dörd tərcüməsi. Ramiz Rövşənin rəyi. «Aydın yol» qəzeti, 2014, 24 oktyabr, s.18.
3. Etimad Başkeçid. Tərcümə mərkəzində bir nəfər də olsun təsadüfi adam yoxdur (müsahibəni apardı: Sevinc Fədai). «Aydın yol» qəzeti, 2015, 13 fevral, s.9.
4. Hamlet İsaxanlı. Poetik tərcümə: Məhdud çərçivələr içində xoş ahəng və gözəllik axtarışı. Poetik tərcümələr. 1-ci toplu. Bakı, «Xəzər universitəsi» nəşriyyatı, 2005, s.331-389.
5. Manafoğlu R., Tağısoy N., Kamal R. İzahlı tərcüməşünaslıq terminləri lüğəti. Bakı, «Mütərcim», 2010, 164 s.
6. Ramiz Rövşən. Poeziya nümunələrinin tərcümə çətinlikləri. «Aydın yol» qəzeti, 2015, 20 fevral, s.7-8.
7. Səməd Vurğun. Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında // Əsərləri. 6 cilddə. 5-ci cild. Bakı, «Elm» nəşriyyatı, 1972, səh.270-278.
8. Tərcüməçilər tərcümə haqqında. «Aydın yol» qəzeti, 2014, 24 oktyabr, s.19.

**Rus dilində**

9. Абуашвили А. Существует ли текст? // Журн. «Вопросы литературы», 1979, №5, с.72-75.
10. Белинский В.Г. Полн.собр. соч., т.9. М., 1955.
11. Гачечиладзе Г. Художественный перевод и литературные взаимосвязи. М., Изд. «Сов. писатель», 1980.
12. Гете И.В. Собрание сочинений. В 10-ти томах. Т.10. М., Изд. «Худ. литература», 1980.
13. Заболоцкий Н. Заметки переводчика // Мастерство перевода. Сборник статей. М., Изд. «Сов. писатель», 1959, с.251-253.
14. Левик В.В. И верность, и вдохновение // Журн. «Вопр. литературы». 1979, №5, с.55-63.
15. Левик В.В. О точности и верности // Перевод-средство взаимн. Сближения народов. М., Изд. «Прогресс», 1987, с.358-377.
16. Минералов Ю. Хвост лисы // Журн. «Дружба народов», 1982, №4, с.247-257.
17. Нелюбин Л. Толковый переводоведческий словарь. М., Изд. «Флинта-Наука», 2003.
18. Озеров. Л. Письма о поэзии // Журн. «Вопросы литературы». М., 1968, №2, с.95-109.
19. Семенко И. Вступительная статья // В.А. Жуковский. Избранное. М., Изд. «Правда», 1986, с.5-18.
20. Чуковский К. Перевод-автопортрет переводчика // Собрание сочинений в шести томах. Т.3. М., Изд. «Худ. литература», 1966, с.255-290.
21. Эткинд Е.Г. Поэзия и перевод. М.-Л., Изд. «Сов. писатель», 1963.

**Исахан ИСАХАНЛЫ**

## Некоторые вопросы поэтического перевода

### Резюме

В статье рассматриваются наиболее важные вопросы, встающие в работе над переводами, в особенности над поэтическими, и требующие постоянного внимания переводчиков-верность оригиналу, точность, адекватность, форма и содержание, донесение до читателя духа и поэзии текста, сохранение поэтического стиля, присущего автору произведения-оригинала, ответственность, ложащаяся на переводчика, допустимая волность в переводах, творчество. Выдвинутые положения подкреплены тезисами известных представителей азербайджанской и др. литературы-переводчиков и теоретиков.

**Isakhan ISAKHANLI**

## Various Issues of Poetic Translation

### Summary

The article discusses the most important points for translators to keep in mind, including difficulties that arise in translation work and especially in poetic translation: faithfulness to the original, accuracy, adequacy, form, content, expressing the spirit of the text, maintining the individual poetic style of the original author, and the translator's responsibility as well as issues such as freedom and creativity in translation. Ideas presented in the article are supported with citations from well-known representatives of Azerbaijani and world literature, both translators and translation theorists.